**Hərrac iştirakçıları üçün təlimat (HİT)**

Hərrac Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 975 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yer təkinin istifadəyə verilməsi üzrə müsabiqə və hərracların keçirilməsi qaydaları və şərtləri haqqında Əsasnamə"yə uyğun keçiriləcəkdir.

## *1. Yer təki sahələrinin istifadəyə verilməsi qaydaları*

1.1. Hərraca çıxarılan yer təki sahələrindən istifadə üçün icazə hərracın qalibinə "Yeri təki haqqında" Qanunun və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sənədlər əsasında "Dağ-mədən ayırması" statusunun müəyyən edilməsi şəklində verilir.

1.2. "Dağ-mədən ayırması" statusu Akt formasında qalib iddiaçı tərəfindən hərracın yekun məbləği tam ödənildikdən və qanunvericilikdə, eləcə də hərracın şərtlər toplusunda nəzərdə tutulmuş sənədlər təqdim edildikdən sonra verilir.

1.3. Yer təkinin istifadəçisinə torpaq sahəsi yerin təkindən istifadəyə icazə verildikdən sonra Azərbaycan Respublikasının torpaq qanunvericiliyində nəzərdə tutulmuş qaydada ayrılır.

## *2. Hərrac iştirakçılarının qanunauyğunluğu*

2.1. Hərrac şərtlərinə cavab verən, Azərbaycan Respublikasının, habelə xarici ölkələrin hüquqi və fiziki şəxsləri yer təkinin istifadəyə verilməsi ilə əlaqədar keçirilən müsabiqə və hərraclarda iştirak edə bilərlər. Qeyd olunan şəxslər ekspert komisiyyasının qərarına uyğun olaraq hərraca dəvət olunur;

## *3. Hərracda xidmət haqqı və beh*

3.1. Əsas şərtlər toplusunu almaq və hərracda iştirak etmək üçün iddiaçılar hərrac haqqında elanda qeyd olunmuş məbləğdə xidmət haqqını və behi ödəməlidirlər.

## *4. Əsas şərtlər toplusunun məzmunu*

4.1. Əsas şərtlər toplusunda hərraca çıxarılan yer təki sahələrinə dair Geoloji İnformasiya Fondundan əldə edilmiş bütün zəruri məlumatlar və "Dağ-mədən ayırması" aktının verilməsi üçün tələb olunan sənədlərin siyahısı öz əksini tapır.

## *5. Əsas şərtlər toplusuna dair izahat*

5.1. Əsas şərtlər toplusu haqqında hər hansı izahatı, yaxud hər hansı sənədi aydınlaşdırmaq üçün iddiaçı hərrac təşkilatçısına məktubla, telefonla müraciət edə və həmin müraciəti onun ünvanına göndərə bilər. Hərrac təşkilatçısı əsas şərtlər toplusunun aydınlaşdırılması ilə bağlı bütün sorğulara, hərracla bağlı sənədlərin verilməsinin son müddətinə qədər və ya əsas şərtlər toplusunun məlumat xəritəsində göstərilmiş vaxtdan gec olmayaraq məktubla cavab verir. Hərracın təşkilatçısı hər bir sorğuya cavab məktubunun nüsxələrini 5 (beş) bank günü müddətində əsas şərtlər toplusunu almış bütün iddiaçılara məsələnin izahatı ilə birlikdə və onun mənbəyini göstərməmək şərti ilə göndərir.

## *6. Əsas şərtlər toplusunda düzəlişlərin edilməsi*

6.1. Hərrac təkliflərinin təqdim olunma müddəti başa çatana qədər hərracın təşkilatçısı hər hansı bir vaxt, öz mülahizəsinə və yaxud iddiaçının sorğusuna verilmiş izahatla bağlı əsas şərtlər toplusunda əlavə və düzəlişlər edə bilər. Hərrac təşkilatçısı əsas şərtlər toplusuna əlavə və düzəlişlər barədə bütün iddiaçılara dərhal məlumat verməlidir. İddiaçılar həmin əlavə və düzəlişləri nəzərə almalıdırlar.

## *7 Hərrac iştirakçılarının hüquqlarını və ixtisaslarını təsdiq edən sənədlər*

7.1. İddiaçı hərracda iştirak etmək hüququnu, ixtisasını təsdiq edən sənədləri təqdim etməlidir;

7.2. İddiaçının hərracda iştirak etmək hüququnu təsdiq edən sənədlərdə göstərilməlidir ki, İddiaçı hərrac təklifini təqdim edən zaman 2-ci maddəyə uyğun olaraq həqiqətən hansısa ölkənin hüquqi nümayəndəsidir:
7.3. Yer təki sahəsindən istifadə etmək üçün iddiaçının maddi və texniki imkanları olmalıdır (Son bir ildəki maliyyə vəziyyəti barədə arayış);
7.4. İddiaçının işçi heyətinin tərkibində ən azı 1 dağ-mədən mühəndisi və 1 geoloq olmalıdır, hərrac sənədlərinin tərkibində onların ixtisaslarını təsdiq edən sənədi və iddiaçı ilə bağlanmış müqavilələri təqdim edilməlidir.
7.5. İddiaçı, Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlərin təmin edilməsi haqqında təsdiqedici sənəd təqdim etməlidir;
7.6. Hərrac prosedurasının başlanmasından əvvəlki 5 il ərzində onlara ayrılmış yer təki sahəsindən icazə şərtlərinin pozulması halları olmamalıdır.

*8. İddiaçının maddi-texniki bazasının (avadanlığının) istifadəyə verilən yer təki sahəsinin iqtisadi-texniki göstəricilərinə və* ***əsas şərt****lər toplusunun tələblərinə uyğunluğunu təsdiq edən sənədlər:*
8.1. İddiaçı yer təki sahəsinin iqtisadi-texniki göstəricilərinə uyğun olaraq istifadə ediləcək avadanlığın texniki sənədlərinin sürətləri təqdim etməlidir.

*9. Təyin olunmuş müdd**ətdən** sonra alınan sənədlər*
9.1. Təkliflərin verilmə müddəti bitdikdən sonra hərrac təşkilatçısı daxil olan zərflər açılmamış halda iddiaçılara qaytarır.

*10. Sənədlərdə dəyişiklik edilməsi və onların geri çağırılması*
10.1. Hərrac sənədlərinin təqdim edilməsi müddəti bitənə qədər hərrac təşkilatçısı sənədlərin qaytarılması və ya dəyişdirilməsi haqqında yazılı xəbərdarlıq alarsa, bu halda iddiaçı öz sənədlərini təqdim etdikdən sonra geri götürmək və ya dəyişdirmək hüququna malikdir.

*11. Sənədlərin təhlil*
11.1. Hərrac təşkilatçısı hərrac sənədləşdirilməsinin düzgünlüyünü yoxlayır.

*12. Hərracda qalibin müəyyən edilməsi*
12.1. Hərracın qalibi ən yüksək qiymət təklif etmiş şəxs elan edilməlidir.

*13. "Dağ-mədən ayırması" Aktının verilməsi*
13.1. Qalib iddiaçı yer təkindən istifadə hüququnu verən "Dağ-mədən ayırması" aktını almaq üçün yer təkindən istifadə hüququnun qiymətini və aşağıdakı sənədləri hərrac təşkilatçısına təqdim etməlidir:
- Faydalı qazıntıların çıxarılması və bunlarla əlaqədar olmayan işlərin texniki layihəsi və ya eyni tipli və kiçik sahədə istismar olunacaq faydalı qazıntı yataqlarının (kərpic və örtük materialı istehsalı üçün gil, əhəngdaşı, qum, çınqıl və s.) işlənməsi üçün "Dağ işlərinin inkişaf planını";
- "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi və onun dövlət ekspertizasının müsbət rəyi;
- Zəruri olan hallarda ayrılan yer təki sahəsinin ehtiyatının dəqiqləşdirilməsi məqsədi ilə aparılan əlavə kəşfiyyat işlərinin nəticələrinə dair məlumatlar və onların əsasında hazırlanan texniki-iqtisadi əsaslandırma sənədi.